www.amu.edu.az

TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-18 (1844) 30 oktyabr 2026-cı il



YAP-ın VIII Qurultayından irəli gələn vəzifələr müzakirə olunub

Rektor, professor Gəray Gəraybəyli: Ölkəmizin gələcək uğurları bu günün istedadlı gənclərindən asılıdır

səh. 2

Şəhid məzunlarımızın məzarları ziyarət edilib

səh. 5

Tələbələr peşəkar fəaliyyətə hazırlanır

səh. 4

Azərbaycanda ilk: hamilə qadın üzərində nadir əməliyyat aparılıb

səh.5



Rektor Prezident təqaüdçüləri ilə görüşüb

Bu adı qorumaq böyük məsuliyyət tələb edir

səh. 2

Magistratura təhsili və rezidentura hazırlığı DİM hədəfləri kontekstində

səh. 3

Böyrək nəqli: kimlər donor ola bilər?

səh. 7



Tibb təhsili üzrə tədris proqramlarının yenilənməsi müzakirə olunub

Görüşdə komissiya üzvləri ilə yanaşı, əmək bazarının nümayəndələri də iştirak edib

səh. 2

Səhiyyə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı Fərman imzalanıb



Prezident İlham Əliyev Səhiyyə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında Fərman imzalayıb. Fərmana əsasən, "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxs (TƏBİB) Səhiyyə Nazirliyinin tabeliyinə verilib. Publik hüquqi şəxsin hüquq və öhdəlikləri, habelə əmlakı Nazirliyin tabeliyində TƏBİB-ə keçir. TƏBİB-in nizamnamə fondu publik hüquqi şəxsin əmlakı hesabına formalaşır. TƏBİB "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunla müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək publik hüquqi şəxs fəaliyyətini davam etdirəcək və onun Müşahidə Şurasının səlahiyyətlərini Nazirliyin yaratdığı komissiya həyata keçirəcək. Qeyd edək ki, dövlət başçısının digər sərəncamları ilə Teymur Yusif oğlu Musayev Azərbaycan Respublikası Baş nazirinin müavini, Anar Məhərrəm oğlu Bayramov Azərbaycan Respublikasının səhiyyə naziri təyin ediliblər.

Rektor Prezident təqaüdçüləri ilə görüşüb



Universitetimizin rektoru, professor Gəray Gəraybəyli Prezident təqaüdünə layiq görülmüş 26 tələbə ilə görüşüb. Tələbələri və onların timsalında valideynlərini təbrik edən rektor, bu uğurun böyük zəhmət və əzmkarlığın nəticəsi olduğunu deyib.

Qeyd edilib ki, tələbə adını qazanmaq gənclərin həyatında ilk mühüm nailiyyətdirsə, Prezident təqaüdünə layiq görülmək bu uğurun daha bir mühüm və əlamətdar mərhələsidir.

G.Gəraybəyli Prezident təqaüdçüsü adını qazanmağın çətin, bu ada layiq qalmağın isə daha böyük məsuliyyət tələb etdiyini bildirib. O, tələbələrin əldə etdikləri nəticələrlə kifayətlənməməli, biliklərini davamlı şəkildə artırmalı, yüksək akademik göstəricilərini qorumalı və gələcək hədəflərinə doğru əzmlə irəliləməli olduqlarını nəzərə çatdırıb.

Rektor universitet rəhbərliyinin tələbələrin potensialının reallaşdırılmaları, akademik inkişafı və uğurları üçün lazımi şərait yaradacağını və onlara bundan sonra da dəstək göstərəcəyini vurğulayıb. Eyni zamanda, ATU-da tələbə biliyinin qiymətləndirilməsi prosesinin şəffaflıq və obyektivlik prinsipləri əsasında həyata keçirildiyini qeyd edərək, tələbəyönümlü fəaliyyətin bundan sonra da davam etdiriləcəyini bildirib.

Görüş zamanı rektor Prezident təqaüdünə layiq görülən 26 tələbənin hər biri ilə tanış olub, onların məzun olduqları təhsil müəssisələri ilə maraqlanıb.

Professor G.Gəraybəyli yüksək bal toplayan abituriyentlərin hər il olduğu kimi, bu il də ATU-ya üstünlük verməsini məmnunluqla qeyd edib. O, cari ildə IV ixtisas qrupu üzrə, xüsusilə tibb sahəsində imtahan nəticələrinin və keçid ballarının əvvəlki illərlə müqayisədə yüksəldiyinə də diqqət çəkib.

Görüşün sonunda tələbələrə mükafatlar təqdim olunub və xatirə şəkli çəkdirilib.

Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatının Azərbaycan Tibb Universiteti üzrə ərazi partiya təşkilatında Prezident, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin partiyanın VIII Qurultayında səsləndirdiyi proqram xarakterli nitqindən irəli gələn vəzifələrə həsr olunmuş tədbir keçirilib.

YAP-ın VIII Qurultayından irəli gələn vəzifələr müzakirə olunub

Rektor, professor Gəray Gəraybəyli: Ölkəmizin gələcək uğurları bu günün istedadlı gənclərindən asılıdır



Tədbir Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. ATU üzrə ərazi partiya təşkilatının sədri, professor Sabir Əliyev VIII Qurultayın siyasi və tarixi əhəmiyyətindən danışıb. Bildirib ki, qurultayın Azərbaycanın ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpa olunduğu yeni tarixi mərhələdə keçirilməsi ona xüsusi əhəmiyyət qazandırır. Sabir Əliyev vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi dövlətçilik strategiyası Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizin qazandığı tarixi nailiyyətlər bu siyasətin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilməsinin nəticəsidir. Onun sözlərinə görə, qurultayda qarşıya qoyulan vəzifələr hər bir partiya üzvünün üzərinə mühüm məsuliyyət qoyur. Dövlətçilik prinsiplərinin qorunması, cəmiyyətlə əlaqələrin gücləndirilməsi, vətəndaş müraciətlərinə həssas yanaşılması və ölkənin gələcək inkişafına töhfə verilməsi bu istiqamətdə əsas prioritetlərdəndir.

YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov çıxışında Prezident İlham Əliyevin VIII Qurultayda səsləndirdiyi fikirlərin ölkənin gələcək inkişafı və partiyanın qarşısında duran vəzifələr baxımından əhəmiyyətini vurğulayıb. O qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik siyasətinin uğurla davam etdirilməsi Azərbaycanın əldə etdiyi nailiyyətlərin qorunmasına və daha da möhkəmləndirilməsinə xidmət edir. ATU-nun rektoru, professor Gəray Gəraybəyli çıxışında tarixi yaddaşın qorunmasının və keçmişin dərslərindən nəticə çıxarılmasının vacibliyini nəzərə çatdırıb. Qeyd edib ki, universitetimizdə əhəmiyyətli siyasi tədbirlərin keçirilməsi tarixi yaddaşa ehtiramın ifadəsidir.

Rektor YAP-ın VIII Qurultayının Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunduğu şəraitdə keçirilməsini tarixi hadisə kimi səciyyələndirib. Bildirib ki, ölkəmizin bugünkü inkişafını Ümummilli Lider Heydər Əliyevin siyasi irsindən ayrı təsəvvür etmək mümkün deyil. Müstəqilliyimizin ilk illərində ölkəmizin üzləşdiyi çətinlikləri xatırladan Gəray Gəraybəyli, dövlətçilik tariximizin unudulmamasının, xüsusilə gənc nəslin bu tarixi dərindən öyrənməsinin əhəmiyyətini vurğulayıb. Ölkəmizin beynəlxalq nüfuzunun artması, müstəqil siyasət yürütməsi və müxtəlif sahələrdə əldə etdiyi nailiyyətlərə toxunan professor G.Gəraybəyli, 44 günlük Vətən müharibəsi zamanı nümayiş etdirilən xalq-iqtidar birliyini Azərbaycanın gələcək inkişafı və müstəqilliyimizin möhkəmləndirilməsi baxımından da mühüm amil kimi qiymətləndirib. Universitetin əsas missiyasının yüksək ixtisaslı mütəxəssislər hazırlamaq olduğunu vurğulayan rektor, professor-müəllim heyətinin, rezidentlərin və tələbələrin üzərinə düşən məsuliyyətdən danışıb. Qeyd edib ki, ölkənin gələcək uğurları gənclərin keyfiyyətli təhsil almasından, elmi potensialının inkişafından və cəmiyyətin tərəqqisinə töhfə verməsindən asılıdır. Rektor ATU kollektivinin dövlətçilik prinsiplərinə və ölkənin inkişaf strategiyasına sadiqliyinin bundan sonra da davam edəcəyinə əminliyini vurğulayıb. Epidemiologiya və tibbi statistika kafedrasının müdiri, professor İbadulla Ağayev həyata keçirilən hərtərəfli inkişaf siyasəti və səhiyyə sahəsində görülən işlərə toxunub. O, son illərdə tibb müəssisələrinin təmiri və ailə sağlamlıq mərkəzlərinin yaradılması istiqamətində fəaliyyətləri xüsusi qeyd edib. II Müalicə-profilaktika fakültəsinin tələbə-dekanı Eldar Baxşəliyev isə çıxışını gənclər siyasətinə, təhsilin və biliklərin müasir cəmiyyətin inkişafındakı roluna həsr edib. O bildirib ki, gənclər yalnız ölkənin gələcəyi deyil, həm də onun bugünkü inkişafının, intellektual potensialının və ictimai həyatının mühüm qüvvəsidir. E.Baxşəliyev qeyd edib ki, müasir dünyada dövlətlərin gücü yalnız iqtisadi və hərbi imkanlarla deyil, həm də insan kapitalı, elmi potensial və innovasiya qabiliyyəti ilə müəyyən olunur. Bu baxımdan tələbələr universitetdə qazandıqları biliklərlə kifayətlənməməli, daim öyrənməli, araşdırmalı, tənqidi düşünmə bacarıqlarını inkişaf etdirməli və əldə etdikləri bilikləri cəmiyyətin tərəqqisinə yönəltməlidirlər. O, gənclərin xarici dilləri öyrənməsinin, müasir texnologiyalardan səmərəli istifadə etməsinin vacibliyini diqqətə çatdırıb. Bununla yanaşı, ana dilinə, milli-mənəvi dəyərlərə, tarixə və mədəniyyətə bağlılığın qorunmasının əhəmiyyətini vurğulayıb. Tədbirdə səsləndirilən fikirlərdə Azərbaycanın əldə etdiyi nailiyyətlərin ardıcıl və məqsədyönlü siyasətin nəticəsi olduğu qeyd edilib. Bildirilib ki, ölkənin gələcək inkişafında gənc nəslin fəallığı, geniş dünyagörüşü, bilik və bacarıqları mühüm rol oynayır. Qurultaydan irəli gələn vəzifələrin həyata keçirilməsində partiya üzvlərinin fəallığının artırılması, cəmiyyətlə əlaqələrin gücləndirilməsi və dövlətçilik prinsiplərinə sədaqətin vacibliyi vurğulanıb.



Arif MƏMMƏDLİ

Tibb təhsili üzrə tədris proqramlarının yenilənməsi müzakirə olunub


Görüşdə komissiya üzvləri ilə yanaşı, əmək bazarının nümayəndələri də iştirak edib



Tibb ixtisasları üzrə tədris proqramlarının yenilənməsi və beynəlxalq standartlara uyğunlaşdırılması ilə bağlı növbəti görüş keçirilib. Elm və Təhsil Nazirliyi tərəfindən ali təhsil proqramlarının hazırlanması məqsədilə yaradılmış Komissiyanın "Əsas (baza ali) tibb təhsili səviyyəsi və Səhiyyə ixtisasları qrupu" üzrə İşçi Qrupunun həmsədri, ATU-nun rektoru, professor Gəray Gəraybəylinin rəhbərliyi ilə keçirilən görüşdə komissiya üzvləri və əmək bazarının nümayəndələri iştirak ediblər. Görüşdə çıxış edən rektor Gəray Gəraybəyli ölkəmizdə əsas tibb təhsili səviyyəsi və səhiyyə ixtisasları üzrə təhsil proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılmasının vacibliyini vurğulayıb, bu istiqamətdə həyata keçirilən islahatları diqqətə çatdırıb. Rektor bildirib ki, yeni tələblər müasir tibb elminin inkişafı və səhiyyə sisteminin kadr ehtiyacları nəzərə alınmaqla, ali təhsil müəssisələrində tədrisin məzmununun əsaslı şəkildə təkmilləşdirilməsini zəruri edir. O, təhsil standartlarının hazırlanması zamanı beynəlxalq təcrübənin nəzərə alınmasının, proqramların qlobal tibb təhsili standartlarına uyğunlaşdırılmasının və əmək bazarının tələblərinin əsas götürülməsinin əhəmiyyətini qeyd edib. Nəzəri biliklərlə yanaşı, klinik hazırlığın gücləndirilməsinin vacibliyinə də toxunan rektor bildirib ki, yenilənən kurikulumlar tələbəyönümlü yanaşma əsasında qurulmalı, tələbələrin praktik bilik və klinik bacarıqlarının inkişafına xüsusi önəm verilməlidir. Tədris proqramlarının yenilənməsinin üstünlüklərindən bəhs edən rektor nəzərə çatdırıb ki, Azərbaycan Tibb Universitetinin "Müalicə işi", "Stomatologiya" və "Əczaçılıq" ixtisasları üzrə qlobal və milli standartlara uyğunlaşdırılmış təhsil proqramları ilə beynəlxalq akkreditasiyadan uğurla keçib. Görüşdə Tədris departamentinin rəhbəri, dosent Kamandar Yaqubov Elm və Təhsil Nazirliyi tərəfindən ali təhsil proqramlarının hazırlanması ilə bağlı müəyyənləşdirilmiş yeni tələblər barədə məlumat verib. Tədris işləri üzrə prorektor, professor Anar Ağayev isə universitetin kadr hazırlığı və təhsil proqramlarının müasirləşdirilməsi istiqamətində strateji əməkdaşlıq təcrübəsindən danışıb. O, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) ilə əməkdaşlığı bu baxımdan uğurlu nümunə kimi dəyərləndirib, mövcud təcrübənin digər maraqlı tərəflərlə də genişləndirilməsinin əhəmiyyətini vurğulayıb. Görüşün yekununda İşçi Qrupun yaradılması, qısa müddət ərzində əsas tibb təhsili üzrə standartların yenilənməsinə dair müvafiq təkliflərin hazırlanması və növbəti görüşdə müzakirəyə təqdim edilməsi barədə qərar qəbul olunub.

İstanbul Nişantaşı Universiteti ilə əməkdaşlığımız güclənir

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli İstanbul Nişantaşı Universitetinin rektoru, professor Ayşegül Komşuoğlu Çıtıpıtıoğlunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Görüşdə iki universitet arasında əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri, beynəlxalq akademik əlaqələrin genişləndirilməsi, tələbə və müəllim mübadiləsi, eləcə də birgə fəaliyyət imkanları nəzərdən keçirilib. Rektor Gəray Gəraybəyli universitetin beynəlxalq əlaqələr strategiyası və bu istiqamətdə həyata keçirilən müxtəlif təşəbbüslər barədə məlumat verib. O, Türk Dövlətləri Təşkilatının Türk Universitetləri Birliyi çərçivəsində həyata keçirilən "Orhun" mübadilə proqramının əhəmiyyətini xüsusi vurğulayaraq, akademik heyət və tələbə mübadiləsinin ali təhsil müəssisələri arasında əlaqələrin möhkəmləndirilməsinə verdiyi töhfəni qeyd edib. ATU-nun Türkiyənin 40-dan çox ali təhsil müəssisəsi ilə əməkdaşlıq əlaqələrinin olduğunu da xatırladan rektor, bu tərəfdaşlıqların təcrübə mübadiləsi və qarşılıqlı inkişaf baxımından əhəmiyyətinə diqqət çəkib. Professor G.Gəraybəyli İstanbul Nişantaşı Universiteti ilə əvvəlki əməkdaşlıq memorandumu üzrə müddətin artıq başa çatdığını, bununla belə tərəfdaşlığın yeni istiqamətlər üzrə davam etdirilməsinə müsbət yanaşıldığını da nəzərə çatdırıb. O, universitetlər arasında qabaqcıl təcrübənin paylaşılmasının, qarşılıqlı faydalı təşəbbüslərin reallaşdırılmasının və akademik əlaqələrin davamlı inkişafının vacibliyini vurğulayıb. Qonaq rektor da öz növbəsində, iki ali təhsil müəssisəsi arasında əməkdaşlığın genişləndirilməsi üçün perspektivli istiqamətlərin mövcud olduğunu diqqətə çatdırıb. O, rəhbərlik etdiyi universitetin ATU ilə müxtəlif sahələrdə tərəfdaşlığın inkişafında maraqlı olduğunu bildirib və birgə həyata keçirilə biləcək təşəbbüslər barədə fikirlərini bölüşüb. Görüşdə ali təhsil müəssisələrinin beynəlxalq reytinqlərdə təmsilçiliyinin universitetlərin inkişafına təsiri, akademik heyət və tələbələr arasında təcrübə mübadiləsinin genişləndirilməsi, eləcə də qarşılıqlı maraq doğuran digər əməkdaşlıq istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb. Görüşün sonunda tərəflər əməkdaşlığın növbəti mərhələyə yüksəldilməsi məqsədilə yeni memorandumun istiqamətlərinin ətraflı müzakirə edilməsi və müvafiq razılıq əldə olunduqdan sonra imzalanması barədə razılığa gəliblər.

Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) görkəmli alim, akademik, tibb elmləri doktoru, professor Adilə Namazovanın anadan olmasının 100 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilib.



Akademik Adilə Namazovanın 100 illik yubileyi qeyd olunub

Tədbirdə dövlət qurumlarının, elmi müəssisələrin və tibb ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Yubiley tədbiri çərçivəsində əvvəlcə Fəxri xiyabanda akademik A.Namazovanın məzarı ziyarət olunub, daha sonra alimin həyat və fəaliyyətinə həsr edilmiş sərgi nümayiş etdirilib.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli çıxışında Adilə xanımın çoxillik elmi və həkimlik fəaliyyətinin respublikada pediatriya elminin formalaşmasında mühüm yer tutduğunu qeyd edib. Diqqətə çatdırıb ki, Ulu Öndər Heydər Əliyev onun elmi fəaliyyətini hər zaman yüksək qiymətləndirib və Azərbaycanda elmi pediatriyanın banisi adlandırıb. Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov Adilə xanımı ötən əsrin 70-ci illərindən tanıdığını, alimin elmi fəaliyyətini, tibb ictimaiyyətində qazandığı nüfuzu yaxından müşahidə etdiyini bildirib. O, A.Namazova ilə Azərbaycan Tibb Universitetində uzun illər birgə çalışdığını xatırladaraq alimin universitetin elmi və ictimai həyatında fəal iştirak etdiyini deyib.

Sonra çıxış edən Azərbaycan Tibb Universitetinin prorektoru, tibb elmləri doktoru, professor Məlahət Sultan bildirib ki, akademik A.Namazova Azərbaycan tibb elminin inkişafında özünəməxsus iz qoyub, pediatriyanın gələcəyinə təsir göstərib və yetişdirdiyi alimlərlə zəngin elmi irs yaradıb. Professor vurğulayıb ki, akademikin Azərbaycanda elmi pediatriyanın banisi kimi tanınması onun ölkəmizin tibb elminin tarixindəki xüsusi mövqeyini ifadə edir.

Tədbirdə akademik Adilə Namazovanın yetirməsi, Azərbaycan Pediatrlar Assosiasiyasının sədri, Avrasiya Uşaq Həkimləri Federasiyasının vitse-prezidenti, Azərbaycan Tibb Universitetinin II Uşaq xəstəlikləri kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Təranə Tağı-zadənin alimin elmi, pedaqoji və ictimai fəaliyyətinə həsr olunmuş təqdimatı dinlənilib.

Sonda akademik Adilə Namazovanın ailəsi adından bacısı Tamella Namazova çıxış edərək, əlamətdar yubiley tədbirinin təşkilinə və Adilə xanımın əziz xatirəsinin yaşadılmasına göstərilən diqqətə görə minnətdarlığını ifadə edib.

"AzerMDS" ilə əməkdaşlığın yeni mərhələsi başlayır

Azərbaycan Tibb Universiteti ilə Həkimlər və Təbib Tələbələr İctimai Birliyi ("AzerMDS") arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində növbəti mühüm addım atılıb. Tərəflər arasında qarşılıqlı anlaşma memorandumu imzalanaraq birgə fəaliyyətin yeni istiqamətləri və gələcək əməkdaşlıq perspektivləri müəyyənləşdirilib.

Bu münasibətlə keçirilən görüşdə universitetin rektoru, professor Gəray Gəraybəyli "AzerMDS"-in fəaliyyəti, eləcə də indiyədək əməkdaşlıq çərçivəsində həyata keçirilən təşəbbüslər və görülən işlərlə maraqlanıb.

Birliyin sədri Gülay Novruzova "AzerMDS"-in fəaliyyəti, əldə olunan nəticələr və həyata keçirilən layihələr barədə məlumat verib. O, ötən dövr ərzində tibb sahəsində əməkdaşlığın genişləndirilməsi çərçivəsində görülən işlərin, tələbələrin peşəkar inkişafının dəstəklənməsi və birgə təşəbbüslərin reallaşdırılması istiqamətində fəaliyyətin davam etdirildiyini vurğulayıb.

Görüşün sonunda Azərbaycan Tibb Universiteti ilə Həkimlər və Təbib Tələbələr İctimai Birliyi arasında qarşılıqlı anlaşma memorandumu imzalanıb. Sənəd tərəflər arasında əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi, ortaq məqsədlər əsasında birgə fəaliyyətin təşviqi və tibb sahəsində yeni inkişaf imkanlarının yaradılması baxımından mühüm əhəmiyyət daşıyır.

Memorandum çərçivəsində gələcəkdə elmi və maarifləndirici tədbirlər, təlimlər, seminarlar, konfranslar və müxtəlif layihələrin təşkili nəzərdə tutulur.

II Müalicə-profilaktika və Stomatologiya fakültələri, eləcə də İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin təşkilatçılığı ilə beynəlxalq akkreditasiya və reytinq prosesləri çərçivəsində Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) həsr olunmuş birgə iclas keçirilib.

Dayanıqlı İnkişaf Məqsədləri müzakirə olunub



Tədbirdə II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli, Stomatologiya fakültəsinin dekanı, dosent Elmira Əliyeva, İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin müdiri, dosent Aygün Babayeva, II Müalicə-profilaktika fakültəsinin dekan müavini, dosent Sevinc Məhərrəmova, professor İbrahim İsayev, dosentlər Möhbəddin Yusubov, Fuad Məmmədov və Rauf Nağıyev çıxış edərək mövzu ətrafında fikirlərini bölüşüblər.

Müzakirələr zamanı DİM-lərin universitetin təhsil və elmi fəaliyyətində nəzərə alınması, bu istiqamətdə institusional əməkdaşlığın gücləndirilməsi, eləcə də müvafiq fəaliyyətlərin beynəlxalq qiymətləndirmə meyarları baxımından əhəmiyyəti diqqətə çatdırılıb. İclas interaktiv müzakirələrlə davam edib, iştirakçıların sualları şöbə müdiri A.Babayeva tərəfindən ətraflı cavablandırılıb.

Magistratura təhsili və rezidentura hazırlığı DİM hədəfləri kontekstində

Magistratura təhsilinin keyfiyyətinin yüksəldilməsi, tədris prosesinin təkmilləşdirilməsi və normativ-hüquqi tələblərə uyğun təşkili məqsədilə magistratura tədrisini həyata keçirən baza kafedraların müdirləri və məsul şəxslərlə görüş keçirilib.



Görüşdə magistratura təhsil pilləsində semestr imtahanlarının test formatında təşkili, sillabuslarda göstərilən elmi və tədris ədəbiyyatlarının əlçatanlığının təmin edilməsi, normativ sənədlərin qüvvədə olan qanunvericiliyin tələblərinə uyğun hazırlanması və kafedralarda dərs yükünün səmərəli bölüşdürülməsi məsələləri ətraflı müzakirə olunub. Xüsusilə, imtahanların test formatında keçirilməsinin qiymətləndirmə prosesində obyektivliyin, şəffaflığın və vahid yanaşmanın təmin edilməsinə, magistrantların nəzəri biliklərinin sistemli şəkildə yoxlanılmasına verə biləcəyi töhfə diqqətə çatdırılıb. Görüşün əsas müzakirə istiqamətlərindən biri də magistrantların dissertasiya mövzularını seçərkən DİM-lərin nəzərə alınması olub. Bildirilib ki, elmi-tədqiqat mövzuları yalnız akademik maraq və nəzəri əhəmiyyət baxımından deyil, həm də cəmiyyətin aktual ehtiyacları, sağlamlığın qorunması, sosial rifah, ətraf mühitin mühafizəsi və digər qlobal çağırışlar kontekstində qiymətləndirilməlidir. Digər görüşdə isə rezidentura hazırlığının mövcud vəziyyəti, qarşıda duran vəzifələr və gələcək inkişaf perspektivləri müzakirə olunub. Görüşdə klinika rəhbərləri, baş həkimlər, klinikalar üzrə məsul şəxslər, kafedra müdirləri və fəal rezidentlər iştirak ediblər. Müzakirələrin əsas istiqamətini rezidentura təhsilinin keyfiyyətinin yüksəldilməsi, nəzəri biliklərlə praktik bacarıqların vəhdətinin gücləndirilməsi, klinik hazırlıq imkanlarının genişləndirilməsi və müasir tibbin tələblərinə cavab verən yüksəkixtisaslı mütəxəssislərin yetişdirilməsi təşkil edib.

Pasiyentin vaxtı - tibbi yardımın görünməyən tərəfi

Səhiyyə sisteminin səmərəliliyindən danışarkən, adətən, tibbi xidmətlərin keyfiyyətinə, maliyyələşdirmə səviyyəsinə, tibb müəssisələrinin maddi-texniki təminatına və müalicənin əlçatanlığına diqqət yetiririk. Lakin iqtisadi əhəmiyyəti çox vaxt diqqətdən kənarda qalan daha bir mühüm resurs mövcuddur - pasiyentin vaxtı.

Tibbi yardım üçün hər bir müraciət yalnız həkim müayinəsi ilə məhdudlaşmır. Buraya tibb müəssisəsinə gedib-gəlmək, növbə gözləmək, sənədləşmə işləri və müayinələrin nəticələrini əldə etmək üçün sərf olunan vaxt da daxildir. Bəzən bu proseslərə sərf edilən vaxt birbaşa tibbi xidmətin göstərilməsinə ayrılan vaxtdan xeyli çox olur. İşləyən insanlar üçün isə bu, iş vaxtının itirilməsi, əlavə xərclərin yaranması və gündəlik həyat rejiminin dəyişdirilməsi deməkdir.



Müasir şəraitdə pasiyentin vaxtına müstəqil iqtisadi resurs kimi yanaşmaq vacibdir. Bu resursdan səmərəli istifadə səhiyyə sisteminin iqtisadi səmərəliliyinin artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu sahədə perspektivli istiqamətlərdən biri ambulator tibbi yardım alan pasiyentlərin vaxt sərfinin qiymətləndirilməsidir. Təklif olunan yanaşma pasiyentin ümumi vaxt yükünü müəyyən etməyə, vaxt itkilərinin təşkilati səbəblərini aşkar etməyə və onların azaldılması imkanlarını qiymətləndirməyə şərait yaradır. Bu yanaşmanın imkanlarını nümayiş etdirmək məqsədilə tibbi xidmətin təşkilinin iki şərti variantı müqayisə edilib. Birinci variantda pasiyentin müayinə nəticələrini əldə etmək üçün tibb müəssisəsinə təkrar müraciəti, ikinci variantda isə xidmətin təşkilinin təkmilləşdirilməsi və nəticələrin elektron qaydada təqdim olunması nəzərdə tutulur. Hesablamalara əsasən, pasiyentin ümumi vaxt sərfi 220 dəqiqədən 102 dəqiqəyə, yəni 53,6 faiz azala bilər. Bu zaman tibbi konsultasiyanın müddəti dəyişməz qalır. Nəticələr nəzəri modelin imkanlarını göstərir və onun praktik tətbiqi əlavə araşdırma tələb edir. Azərbaycanda rəqəmsal səhiyyənin inkişafı şəraitində bu məsələ xüsusi aktuallıq kəsb edir. Həkim qəbuluna elektron yazılış, növbələrin idarə olunması sisteminin təkmilləşdirilməsi, müayinə nəticələrinin məsafədən əldə edilməsi və zəruri olmayan təkrar müraciətlərin azaldılması tibbi yardımın əhali üçün daha rahat və əlçatan olmasına imkan yarada bilər. Bununla yanaşı, nəzərə almaq lazımdır ki, vaxt sərfinin azaldılması tibbi xidmətin keyfiyyəti hesabına həyata keçirilməməlidir. Əsas məqsəd zəruri müalicəyə ayrılan vaxtı azaltmaq deyil, tibbi xidmətin təşkili zamanı yaranan əsassız vaxt itkilərini aradan qaldırmaqdır. Beləliklə, müasir səhiyyə sisteminin səmərəliliyi yalnız maliyyə və maddi resurslardan rasional istifadə ilə deyil, həm də insan vaxtına həssas və qənaətcil yanaşma ilə müəyyən edilməlidir. Çünki pasiyentin vaxtı sadəcə gözləməyə sərf olunan dəqiqələr deyil, tibbi yardımın təşkili zamanı mütləq nəzərə alınmalı olan dəyərli iqtisadi resursdur.

Nigar Ələkbərova

İctimai fənlər kafedrasının dosenti, iqtisad üzrə fəlsəfə doktoru

Tələbələr peşəkar fəaliyyətə hazırlanır

İctimai səhiyyə fakültəsində Tibb bacısı (qardaşı) işi ixtisası üzrə təhsil alan tələbələr üçün "Tibb bacılığı: gələcəyi formalaşdıran güc" mövzusunda təlim təşkil olunub.



Təlimdə Liv Bona Dea Hospitalının baş tibb bacısı Miyase Gül Pıçakçı, əməliyyatxanalar üzrə böyük tibb bacısı Elnarə Əfəndiyeva və infeksiyaya nəzarət üzrə böyük tibb bacısı Ramilə Əhmədova iştirak ediblər. Əvvəlcə fakültənin dekanı, dosent Qalina Qəniyeva təlimin məqsədi barədə məlumat verib. Bildirib ki, təşəbbüs tələbələrin tibb bacılığı peşəsinin əhəmiyyəti barədə biliklərini genişləndirmək, onların peşəkar fəaliyyətə hazırlığını dəstəkləmək və gələcək işlərində məsuliyyətli yanaşmanın vacibliyini vurğulamaq məqsədi daşıyır.

Sonra Miyase Gül Pıçakçı təqdimatla çıxış edib. Təlim zamanı tibb bacılarının səhiyyə sistemindəki rolu, pasiyentlərə keyfiyyətli və təhlükəsiz tibbi xidmətin göstərilməsi, infeksiyaya nəzarət tədbirləri və əməliyyatxanalarda işin təşkili məsələləri müzakirə olunub.

İştirakçılar tibb bacılığı sahəsində peşəkar fəaliyyətin xüsusiyyətləri barədə məlumat əldə edib, klinik praktikada tətbiq olunan yanaşmalarla tanış olublar.

"Laparoskopik bazis vərdişlər" təliminə start verilib

I Cərrahi xəstəliklər kafedrasının təşkilatçılığı və Rezidentura şöbəsinin dəstəyi ilə I-II kurs rezidentləri üçün "Laparoskopik bazis vərdişlər" adlı praktik təlim proqramına start verilib.



Təlimin açılışında çıxış edən kafedra müdiri, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramov rezidentlərin peşəkar hazırlığında praktik bacarıqların əhəmiyyətini vurğulayıb və bu istiqamətdə təlimlərin davamlı olacağını bildirib. Rezidentlər üzrə məsul şəxs, tibb elmləri doktoru Elman Əzimov gələcək cərrahların praktik vərdişlərinin inkişafının rezidentura təhsilində mühüm yer tutduğunu qeyd edib və növbəti təlimlərin proqramı barədə məlumat verib. "Karl Storz" şirkətinin nümayəndəsi Taleh Bəşirovun təlimçiliyi ilə baş tutan tədbirdə rezidentlər laparoskopik cərrahiyyənin əsas prinsipləri və ilkin praktik bacarıqlarla tanış olublar. İştirakçılara müasir cərrahi yanaşmaların tətbiqi üçün vacib olan bazis vərdişlər öyrədilib.

Rezident və tələbələrimiz İdman Akademiyasında təcrübə keçəcək



Universitetimizdə Azərbaycan İdman Akademiyasının İdman Tibbi Tədqiqatları Laboratoriyası ilə fizioterapiya və tibbi reabilitasiya sahəsində kadr hazırlığının təkmilləşdirilməsi, elmi-praktik əməkdaşlığın genişləndirilməsi məqsədilə görüş keçirilib.

Fizioterapiya və tibbi reabilitasiya ixtisası üzrə rezidentlər, eləcə də fizioterapiya ixtisasında təhsil alan bakalavr və magistrantların iştirak etdiyi tədbirdə laboratoriyanın direktor Rauf Əliyev idman klublarında və milli yığma komandalarda fizioterapiya və tibbi reabilitasiya üzrə ixtisaslı mütəxəssislərə olan ehtiyacı vurğulayıb. O, iştirakçılara ixtisaslarının gələcək karyera perspektivləri, idman təbabətində fizioterapiya və reabilitasiyanın rolu, həmçinin nəzəri biliklərin praktik bacarıqlarla möhkəmləndirilməsinin əhəmiyyəti barədə məlumat verib. Görüşün nəticəsi olaraq, rezidentlərin rotasiyalarının, bakalavr tələbələrinin istehsalat təcrübəsinin və magistrantların elmi-tədqiqat təcrübəsinin İdman Tibbi Tədqiqatları Laboratoriyasında təşkili barədə razılıq əldə olunub. Görüşdə ATU-nun Fizioterapiya və tibbi reabilitasiya kafedrasının əməkdaşları aktiv iştirak ediblər. Kafedranın müdiri, dosent Paşa Mehdiyev bu əməkdaşlığın təhsil, elmi-tədqiqat və praktik fəaliyyət arasında əlaqələrin gücləndirilməsinə, fizioterapiya və tibbi reabilitasiya sahəsində peşəkar kadr potensialının inkişafına xidmət etdiyini bildirib.

II Müalicə-profilaktika fakültəsində TEC sədri seçilib



II Müalicə-profilaktika fakültəsi Tələbə Elmi Cəmiyyətinə (TEC) sədr seçkisi keçirilib. Tədbirdə çıxış edən ATU TEC-in elmi rəhbəri, dosent Nərgiz Məmmədova tələbələrin elmi fəaliyyətə cəlb olunmasının əhəmiyyətini vurğulayıb.

O, sədr seçkisinin yalnız təşkilati xarakter daşımadığını, eyni zamanda tələbələrin gələcək elmi fəaliyyətinə istiqamət verəcək liderin müəyyənləşdirilməsi baxımından mühüm olduğunu bildirib. Fakültənin dekanı, dosent İsrail Məhərrəmbəyli çıxışında tələbələrin elmi-tədqiqat fəaliyyətinin inkişaf etdirilməsi, onların elmi potensialının üzə çıxarılması və təşəbbüskarlığının dəstəklənməsinin vacibliyini qeyd edib. O, fakültədə Tələbə Elmi Cəmiyyətinin fəaliyyətini daha da genişləndirməyin, tələbələri aktual mövzularda maraqlı və yüksək səviyyəli elmi-tədqiqat işləri hazırlamağa təşviq etməyin vacibliyini vurğulayıb. Fakültə TEC-in elmi rəhbəri, Normal fiziologiya kafedrasının dosenti Aqil Əliyev və universitet TEC-in sədri Nigar Babayevanın çıxışlarından sonra sədrliyə namizədlər – Şəhriyar İsmayılzadə və Aslan Ələkbərov öz seçki platformalarını təqdim ediblər. Səsvermənin nəticələrinə əsasən, IV kurs tələbəsi Ş.İsmayılzadə fakültə Tələbə Elmi Cəmiyyətinin sədri seçilib.

Kök hüceyrə tədqiqatları mövzusunda seminar baş tutub

Elmi Araşdırmalar Mərkəzində müasir biologiya və təbabətin prioritet istiqamətlərindən olan kök hüceyrə tədqiqatlarına həsr olunmuş elmi seminar keçirilib.

Seminarda biologiya üzrə fəlsəfə doktoru İnci Şıxaliyeva "Kök hüceyrə izolyasiyası və identifikasiyası" mövzusunda ətraflı məruzə ilə çıxış edib. Məruzəçi kök hüceyrələrin toxuma və orqanlardan izolyasiyası, onların in vitro şəraitdə kultivasiyası üsulları, eləcə də identifikasiyasında tətbiq edilən müasir molekulyar və hüceyrə texnologiyaları barədə geniş məlumat verib. Təqdimatda kök hüceyrələrin fenotipik xüsusiyyətlərinin təyinində axın sitometriyası (flow cytometry) və immunoflüoresensiya metodlarının rolu, spesifik hüceyrə markerlərinin diaqnostik əhəmiyyəti və hüceyrələrin diferensiasiya potensialının dəqiq qiymətləndirilməsi məsələləri xüsusi vurğulanıb.





Konfransda 23 məruzə təqdim olunub

Qulaq, burun və boğaz xəstəlikləri kafedrasının təşkilatçılığı ilə "III Pediatrik Otorinolarinqologiya" konfransı keçirilib. Multidissiplinar formatda təşkil olunan konfransa kafedranın müdiri, professor Vəfa Pənahian sədrlik edib.

Sahə üzrə həkimlərlə yanaşı, respublikanın müxtəlif tibb müəssisələrində fəaliyyət göstərən pediatr, nevropatoloq və ailə həkimlərinin də iştirak etdiyi tədbirdə ümumilikdə 23 elmi məruzə təqdim olunub. Konfrans çərçivəsində kafedranın dosentləri Ayaz Qasımov və Sara Ağalar, assistent Afaq Şadlinskaya, baş laborantlar Elvin Ələskərov və Fidan Həşimzadə, eləcə də Üz-çənə və ağız xəstəlikləri kafedrasının assistenti Anar Yusubov məruzələrlə çıxış ediblər.

Tədbirdə, həmçinin Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəyli və Uşaq xəstəlikləri kafedrasının professoru Səbinə Qarayeva çıxış ediblər.

“Elmi tədqiqatdan elmi məqaləyə”

Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə “Elmi tədqiqatdan elmi məqaləyə” mövzusunda maarifləndirici seminar keçirilib.



Tələbələrin elmi-tədqiqat fəaliyyətinə marağının artırılması, elmi məqalələrin hazırlanması və elmi nəticələrin nüfuzlu beynəlxalq jurnallarda dərc olunması istiqamətində bilik və bacarıqlarının inkişaf etdirilməsi məqsədilə təşkil olunan seminar iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb. TEC-in rəhbəri, dosent Nərgiz Məmmədova müasir dövrdə tələbələrin elmi-tədqiqat fəaliyyətinə erkən mərhələdən cəlb olunmasının əhəmiyyətini vurğulayıb. O, elmi araşdırmaların nəticələrinin düzgün təhlili, sistemləşdirilməsi və elmi məqalə şəklində təqdim olunmasının gənc tədqiqatçıların formalaşmasında mühüm rol oynadığını qeyd edib. Seminarın spikeri, biologiya üzrə fəlsəfə doktoru, dosent Fuad Rzayev “Elmi tədqiqatdan elmi məqaləyə” mövzusunda geniş və maraqlı təqdimatla çıxış edib. Məruzəçi elmi tədqiqatın əsas mərhələləri, elmi məqalənin hazırlanması prinsipləri, məqalənin strukturuna qoyulan tələblər, beynəlxalq elmi jurnalların seçilməsi və nəşr prosesində diqqət yetirilməli vacib məqamlar barədə iştirakçılara məlumatlar verib. İnteraktiv formatda davam edən seminarın sonunda Tələbə Elmi Cəmiyyətinin sədri Nigar Babayeva TEC-in fəaliyyəti, üzvlük qaydaları və tələbələrin elmi-tədqiqat işlərinə cəlb olunması imkanları barədə məlumatları paylaşıb.

Süni intellektin tibbi tədqiqatlara inteqrasiyası diqqət mərkəzində



Oktyabrın 16-da Tədris Terapevtik Klinikada “Süni intellekt və data-analitika texnologiyalarının tibbi elmi tədqiqatlara inteqrasiyası” mövzusunda seminar keçirilib.

Tədbiri açan Elmi Tədqiqatların İdarə Olunması Departamentinin rəhbəri, professor Eldar Qarayev data analitikasının tibbi problemlərin vaxtında aşkarlanması, xəstəliklərin yayılma risklərinin qiymətləndirilməsi və profilaktik tədbirlərin müəyyənləşdirilməsində əhəmiyyətini vurğulayıb. O bu istiqamətdə müxtəlif elm və tibb sahələrinin mütəxəssisləri arasında əməkdaşlığın vacibliyini qeyd edib. Sonra Tibb və bioloji fizika kafedrasının müdiri, Data Analitika və Süni İntellekt Laboratoriyasının rəhbəri İsmayıl Qafarov laboratoriyanın fəaliyyəti, ilkin nəticələr və gələcək planlar barədə təqdimatla çıxış edib. Bildirib ki, tədqiqatlarda əsas başlanğıc nöqtəsi süni intellekt deyil, klinik problemdir. Əvvəlcə problem və tədqiqat sualı dəqiq müəyyənləşdirilməli, məlumatlar hazırlanmalı, daha sonra analitik üsullar və süni intellekt modelləri tətbiq olunmalıdır. Nəticələr klinik praktikada yoxlanılmalı, modellərin etibarlılığı statistik təhlillərlə qiymətləndirilməlidir. İ.Qafarovun sözlərinə görə, laboratoriyada xəstəliklərin ağırlaşma risklərinin müəyyənləşdirilməsi, risk faktorlarının təhlili və diaqnostik üsulların qiymətləndirilməsi istiqamətində araşdırmalar aparılır. Qısa müddətdə beş patent müraciəti üzrə iş hazırlanıb, onlardan ikisi təqdim edilib. Q1 və Q2 kateqoriyalı elmi jurnallar üçün məqalələr də hazırlanaraq təqdimat mərhələsinə çatdırılıb. Seminarda məlumatların təqdim edilməsi və istifadəsi qaydalarına da toxunulub. Qeyd edilib ki, laboratoriyanın müvafiq protokolunda məlumatları təqdim edən qurumun razılığı, anonimləşdirmə, etik komitənin icazəsi, tədqiqatın məqsədi və xəstələrin məxfiliyinin qorunması kimi məsələlər nəzərə alınır. Məlumatların emalı zamanı tədqiqatçıların elmi töhfələrinin və müəlliflik hüquqlarının qorunmasının vacibliyi də vurğulanıb. Diqqətə çatdırılıb ki, əsas məqsəd yalnız məqalə dərc etdirmək və ya patent almaq deyil, elmi nəticələri praktikada tətbiq etməkdir. Bu məqsədlə ATU-nun Startap və kommersiyalaşdırma bölməsi ilə əməkdaşlığa başlanılıb, elmi ideyaların praktik layihələrə çevrilməsini dəstəkləmək üçün 10 həftəlik seminar proqramı təşkil olunub. Beynəlxalq əməkdaşlıq çərçivəsində Böyük Britaniya, Fransa və Avstraliyada çalışan alimlərin iştirakı ilə doqquz vebinardan ibarət proqram hazırlanıb. Gələcək planlara çoxmərkəzli tədqiqatların genişləndirilməsi, müxtəlif ölkələrdən toplanan məlumatların müqayisəli təhlili və nəticələrin müstəqil məlumat bazalarında yoxlanılması daxildir. Seminar sual-cavab sessiyası və fikir mübadiləsi ilə davam edib. Sonda iştirakçılar Data Analitika və Süni İntellekt Laboratoriyasının fəaliyyəti və iş şəraiti ilə tanış olublar.

Tibb kollecinin müəllimləri üçün praktik seminar təşkil olunub

Tibb və sağlamlıq elmləri təhsili kafedrasının təşkilatçılığı ilə tibb kollecinin müəllimləri üçün “Klinik bacarıqların tədrisi və qiymətləndirilməsində müasir yanaşmalar” mövzusunda praktik seminar keçirilib.



Əvvəlcə kafedranın baş müəllimi, tədris işləri üzrə müdir müavini Samirə Məmmədova iştirakçıları salamlayaraq, kafedranın fəaliyyəti haqqında məlumat verib. O, çıxışında bacarıq dərslərinin təşkili və keçirilməsi metodikasına toxunaraq, bu dərslərin əsas məqsədinin tələbələrə tibbi bacarıqları düzgün ardıcıllıqla öyrətmək və onların həmin bacarıqları müstəqil şəkildə yerinə yetirmələrini təmin etmək olduğunu bildirib. S.Məmmədova qeyd edib ki, tədris prosesində müəllimin bacarığı nümayiş etdirməsi, icra mərhələlərini izah etməsi, tələbələrin müstəqil məşq etməsi və müntəzəm geribildirimin verilməsi xüsusi əhəmiyyət daşıyır. Onun sözlərinə görə, bacarıqların təkrar məşqlər vasitəsilə mərhələli şəkildə mənimsənilməsi, tələbələrin fərdi inkişafının izlənilməsi və əvvəlcədən müəyyənləşdirilmiş meyarlar əsasında obyektiv qiymətləndirmənin aparılması təlimin səmərəliliyini artıran əsas amillərdir. Daha sonra kafedranın assistenti İlhamə Cəfərova Obyektiv Strukturlaşdırılmış Klinik İmtahan (OSKİ) haqqında təqdimatla çıxış edib. O, imtahanın təşkili və qiymətləndirmə prinsipləri, stansiyaların hazırlanması və tətbiqi, eləcə də imtahan prosesində qarşıya çıxan çətinliklər və onların həlli yolları barədə məlumat verib. Seminar çərçivəsində kafedranın digər assistenti Rəhilə Mircavadlı DOPS (Direct Observation of Procedural Skills - prosedur bacarıqlarının birbaşa müşahidəsi) qiymətləndirmə üsulu barədə məlumat verib. DOPS-un qiymətləndirmə üsulu kimi mahiyyəti, əhəmiyyəti, tətbiq qaydaları və dünya praktikasında rolu diqqətə çatdırılıb. O, həmçinin iştirakçılara Miller piramidası haqqında məlumat verərək, nəzəri biliklərin praktik bacarıqlara çevrilməsinin və tələbələrin klinik fəaliyyətinin müxtəlif səviyyələrdə qiymətləndirilməsinin əhəmiyyətini izah edib.

Universitetimizin rəhbərliyi və kollektivi Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman məzunlarımızın əziz xatirəsini daim ehtiramla yad edir, onların şərəfli həyat və döyüş yolunun gələcək nəsillərə çatdırılmasına xüsusi önəm verir.



Şəhid məzunlarımızın məzarları ziyarət edilib

Bu çərçivədə Hərbi tibb fakültəsinin rəhbərliyi və şəxsi heyəti Sumqayıt şəhərində yerləşən Şəhidlər Xiyabanını ziyarət edib. Ziyarət zamanı torpaqlarımızın azadlığı uğrunda şücaət göstərərək şəhidlik zirvəsinə ucalan məzunlarımız - tibb xidməti baş leytenantı Qasımov Şöhrət Şakir oğlu və gizir Abdullayev Eldar Firidun oğlunun məzarları önünə əklil və gül dəstələri qoyulub, onların əziz xatirəsinə dərin ehtiram ifadə olunub. Ziyarət çərçivəsində fakültənin rəisi, tibb xidməti polkovniki Məharət Rzayev şəhid ailəsi ilə görüşüb. Görüş zamanı şəhidlərimizin igidlik salnaməsinin onların övladlarına, bütün gənclərə çatdırılmasının əhəmiyyəti vurğulanıb.

Şəhid ailəsinin üzvləri göstərilən diqqətə, qayğıya və ehtirama görə universitetin rəhbərliyi və kollektivinə minnətdarlıqlarını bildiriblər.

Azərbaycanda ilk: hamilə qadın üzərində nadir əməliyyat aparılıb

Azərbaycan səhiyyəsində mühüm yeniliyə imza atılıb. Universitetimizin Tədris Cərrahiyyə Klinikasında 19 həftəlik hamilə qadının üzərində dünyada nadir hallarda tətbiq olunan laparoskopik uroloji əməliyyat uğurla icra edilib.

Əməliyyat 20 yaşlı, ilk hamiləliyini yaşayan qadın üzərində aparılıb. Hamiləlik dövründə arterial təzyiqin dəfələrlə 170-180 mm civə sütununa qədər yüksəlməsi səbəbindən ultrasəs müayinəsindən keçirilən pasiyentin sağ böyrəküstü vəzisində 8 santimetr ölçüsündə törəmə aşkarlanıb. İnstrumental və laborator müayinələr nəticəsində törəmənin feoxromositoma olduğu müəyyən edilib. Feoxromositoma nadir rast gəlinən neyroendokrin törəmədir. Bu xəstəlik arterial təzyiqin qəfil və kəskin yüksəlməsinə səbəb ola bilər. Hamiləlik zamanı belə bir vəziyyətin yaranması isə həm ana, həm də bətnindəki körpənin həyatı üçün ciddi təhlükə yaradır. Pasiyentin vəziyyəti nəzərə alınaraq, ginekoloq, endokrinoloq, kardioloq və anesteziologların iştirakı ilə geniş tibbi konsultasiyalar, zəruri müayinə və əməliyyatöncəsi hazırlıq tədbirləri həyata keçirildikdən sonra oktyabrın 19-da Urologiya kafedrasının müdiri, professor Rauf Nağıyev tərəfindən sağ böyrəküstü vəzin çıxarılması - sağtərəfli adrenalektomiya əməliyyatı laparoskopik üsulla icra olunub.

Uşaqlarda epilepsiya üzrə klinik protokolun müzakirəsi keçirilib



Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) və Azərbaycan Tibb Universitetinin Nevrologiya və tibbi genetika kafedrasının birgə təşkilatçılığı ilə “Uşaqlarda epilepsiya üzrə klinik protokolun təqdimatı”na həsr olunmuş elmi-praktik konfrans keçirilib.

Tədbir uşaqlarda epilepsiyanın diaqnostikası, təsnifatı, müalicəsi və uzunmüddətli idarə olunması üzrə hazırlanmış klinik protokolun təqdim edilməsi, səhiyyə mütəxəssislərinin protokolun tətbiqi ilə bağlı bilik və bacarıqlarının artırılması məqsədi daşıyıb. İSİM-in Metodiki şöbəsinin müdiri Billurə Yusifova, ATU-nun Nevrologiya və tibbi genetika kafedrasının müdiri, tibb elmləri doktoru, professor Aytən Məmmədbəyli, tibb üzrə fəlsəfə doktorları, dosent Nailə Abbasova, assistent Sona Əliyeva, Mədinə Tağıyeva, eləcə də baş laborant Ülkər Mürsəlova, assistent Samirə İsmayılova və dissertant Günel Lətifova geniş təqdimatla çıxış ediblər. Çıxışlarda neonatal və infantil dövrlərin, uşaqlıq və yeniyetməlik yaşlarının epileptik sindromları, epilepsiyanı təqlid edən qeyri-epileptik paroksizmal vəziyyətlər, epilepsiya və neyroinkişaf pozğunluqları və digər mövzular barədə ətraflı məlumat verilib. Klinik halların müzakirəsi zamanı xəstəliyin müxtəlif təzahürləri və diaqnostik yanaşmalar diqqətə çatdırılıb.

Əməkdaşlarımızın uğurları



Daşkənd şəhərində Özbəkistan Respublikası Elmlər Akademiyasının akademik S.Y.Yunusov adına Bitki Maddələri Kimyası İnstitutunun yaradılmasının 70 illiyinə həsr olunmuş "Bioloji aktiv birləşmələr: kimyadan təbabətə" mövzusunda beynəlxalq konfrans keçirilib.

Elmi Departamentin rəhbəri, Əczaçılıq toksikologiyası və kimya kafedrasının müdiri, professor Eldar Qarayev və Əczaçılıq kimyası kafedrasının müdiri, professor Tahir Süleymanov konfransa dəvətli məruzəçilər qismində qatılaraq plenar iclasda çıxış ediblər. Kimya, farmakologiya, tibb və əczaçılıq sahələrində çalışan alim və mütəxəssisləri bir araya gətirən konfransda bioloji aktiv birləşmələrin sintezi və tədqiqi, təbii mənşəli maddələrin farmakoloji xüsusiyyətləri, yeni dərman vasitələrinin yaradılması və müasir əczaçılıq elminin aktual istiqamətləri müzakirə olunub. E.Qarayev məruzəsində O, xalq təbabətində istifadə olunan bitkilərin mümkün toksik təsirlərinə və onların təhlükəsizliyinin elmi cəhətdən qiymətləndirilməsinin əhəmiyyətinə diqqət çəkib. T.Süleymanov isə Azərbaycanın zəngin bitki ehtiyatlarının fitokimyəvi tədqiqi, onların potensial tətbiq imkanları və əczaçılıq elmi baxımından əhəmiyyəti ilə bağlı araşdırmalarını konfrans iştirakçıları ilə bölüşüb.

***

Azərbaycan Tibb Universiteti, Yeni Klinika və İtaliyanın Bolonya Universitetinin nümayəndələrinin birgə hazırladığı elmi-tədqiqat İspaniyanın Barselona şəhərində keçirilən "UEG Week 2026" beynəlxalq konqresində təqdim olunaraq mükafata layiq görülüb.



"Rezektabel mədə xərçəngində perioperativ FOLFOX rejimi FLOT rejimindən geri qalmır və neytropeniyanın əhəmiyyətli dərəcədə daha az müşahidə olunması ilə səciyyələnir: propensiti skoruna əsaslanan uyğunlaşdırılmış real klinik məlumatların təhlili" adlı araşdırmada hər iki rejimin müalicə nəticələri, eləcə də neytropeniya kimi hematoloji yan təsirlərin tezliyi qiymətləndirilir. Tədqiqatın müəllifləri arasında ATU-nun II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli, Yeni Klinikanın uzman cərrahı, doktor Ayxan Abbasov, ATU-nun tələbələri Meysam Ghanbari Saray, Ali Ghorbaniazar, Nicolle Gonzalez, Minhaalu Hassan Ali, Saif Mahran, Mehriban Vəliyeva və Bolonya Universitetinin nümayəndəsi Amirreza Eyvazi yer alıb. ATU-nun tələbəsi və Tələbə Elmi Cəmiyyətinin şura üzvü Meysam Saray "UEG Week 2026"-da tədqiqatla bağlı çıxış edib. Araşdırmanın nəticələrinin elmi jurnalda dərc olunması nəzərdə tutulur.

***



Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri, dosent Şəhla Balayeva Rusiya Federasiyasının Moskva şəhərində keçirilən beynəlxalq elmi tədbirlərdə iştirak edib. O, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin F.F.Erisman adına İctimai Sağlamlıq İnstitutunda Uşaq və yeniyetmələrin gigiyenası kafedrasının yaradılmasının 100 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransda və X Milli Məktəb və Universitet Təbabəti Konqresində elmi sessiyanın həmsədri və məruzəçi qismində çıxış edib. Məruzədə havanın çirklənməsinin Azərbaycanda uşaq əhalisinin sağlamlığına təsiri, urbanizasiya şəraitində ekoloji risklərin artması, eləcə də uşaqlar üçün sağlam, təhlükəsiz və əlverişli şəhər mühitinin formalaşdırılması məsələləri diqqətə çatdırılıb. Uşaqların sağlamlığı ilə hava çirklənməsi arasındakı əlaqələrin qiymətləndirilməsi, ekoloji risk amillərinin müəyyənləşdirilməsi və onların profilaktikasında müasir beynəlxalq yanaşmaların tətbiqi əsas elmi istiqamətlər kimi təqdim olunub.

* * *

Ümumi cərrahlıq kafedrasının professoru Novruz Hacıyev və kafedranın dosenti, tibb elmləri doktoru Elman Tağısoy Cənubi Koreyanın Seul şəhərində keçirilən "LMCE 2026 & 67 KSLM" beynəlxalq elmi toplantısında iştirak ediblər. N.Hacıyev E.Tağısoyun da həmmüəllifi olduğu "Azərbaycanda yeni nəsil intellektual laboratoriyaların yaradılması: çağırışlar və inkişaf perspektivləri" mövzusunda məruzə ilə çıxış edib. Professor, həmçinin "Kəskin xolesistitdə NLR və SIRI göstəricilərinin əhəmiyyəti" adlı poster məruzə təqdim edib. Məruzədə kəskin xolesistitin qiymətləndirilməsində iltihabi göstəricilərin əhəmiyyəti ilə bağlı tədqiqat mövzusu önə çıxarılıb. Əməkdaşlarımız tərəfindən beynəlxalq elmi toplantıda təqdim olunan mövzular Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərindən 3-cü – "Sağlamlıq və rifah" və 9-cu – "Sənaye, innovasiya və infrastruktur" məqsədləri ilə uzlaşır.



* * *



Fizioterapiya və tibbi reabilitasiya kafedrasının professoru Nadir Hüseynov oktyabrın 15-16-da Rusiyanın Sankt-Peterburq şəhərində beynəlxalq iştirakçılarla keçirilən "Sankt-Peterburqda Revmatologiya Günləri" adlı XXVI Ümumrusiya konqresində iştirak edib. O, konqresin fəxri prezidenti kimi tədbirin rəyasət heyətinin üzvü seçilib və panel proqram çərçivəsində "Naftalan neftinin müalicəvi xüsusiyyətləri və onun revmatoloji xəstələrin kompleks reabilitasiyasında effektivliyi" mövzusunda məruzə ilə çıxış edib. N.Hüseynovun bu nüfuzlu elmi tədbirdə iştirakı Azərbaycan Tibb Universitetinin beynəlxalq elmi əlaqələrinin inkişafına və müalicəvi Naftalan neftinin tibbi tətbiqi sahəsində əldə olunan təcrübənin beynəlxalq auditoriyaya çatdırılmasına töhfədir. Xatırladaq ki, o bundan əvvəl Daşkənd şəhərində APLAR (Asiya-Sakit Okean Revmatologiya Assosiasiyaları Liqası) dəstəyi ilə keçirilən Avrasiya Revmatoloqlar Liqasının (LEAR) VIII Konqresində "Müalicəvi Naftalan neftinin revmatik xəstəliklərin müalicə və reabilitasiyasında terapevtik effektivliyi" mövzusunda çıxış etmişdi.

***

Psixiatriya kafedrasının tədris hissə müdiri, uşaq və yeniyetmə psixiatrı Nərmin Quliyeva Avstriyanın Vyana şəhərində keçirilən Azərbaycan–Avropa Neyroelm Əməkdaşlıq Forumu çərçivəsində dəyirmi masada iştirak edib. Avropanın aparıcı universitet və elmi-klinik mərkəzlərini təmsil edən nevrologiya, pediatriya, uşaq nevrologiyası, uşaq və yeniyetmə psixiatriyası, eləcə də neyroelm sahəsində tanınmış mütəxəssislərin qatıldığı tədbirdə uşaq və yeniyetmə psixi sağlamlığının inkişafı, erkən diaqnostika və müasir mütəxəssis hazırlığı, klinik təcrübənin təkmilləşdirilməsi və beynəlxalq elmi əməkdaşlığın genişləndirilməsi məsələləri diqqət mərkəzində olub.



N.Quliyeva dəyirmi masada "Azərbaycanda uşaq psixi sağlamlığı xidmətləri: klinik və təhsil əməkdaşlığı üzrə təklif" mövzusunda məruzə ilə çıxış edib.

Dəyirmi masa çərçivəsində neyroinkişaf pozuntularının erkən aşkarlanması və diaqnostikası, uşaq və yeniyetmələrə göstərilən psixi sağlamlıq xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, ixtisaslaşmış kadr hazırlığının müasirləşdirilməsi, beynəlxalq mentorluq və klinik superviziya imkanlarının genişləndirilməsi barədə fikir mübadiləsi aparılıb. Həmçinin Avropanın aparıcı universitetləri və klinik mərkəzləri ilə birgə elmi-tədqiqat, klinik təcrübə mübadiləsi və təhsil layihələrinin həyata keçirilməsi üzrə mümkün əməkdaşlıq istiqamətləri nəzərdən keçirilib.

***



ATU Koreya Respublikasında keçirilən "2026 Traditional Korean Medicine Policy Training Program" adlı beynəlxalq proqramda təmsil olunub.

Koreya Respublikasının Səhiyyə və Rifah Nazirliyinin ev sahibliyi və Koreya Təbabətinin İnkişafı üzrə Milli İnstitutun (NIKOM) təşkilatçılığı ilə keçirilən proqramda II Daxili xəstəliklər kafedrasının əməkdaşı Ayan Məmmədova iştirak edib. Səhiyyə siyasəti, elmi yanaşmalar və klinik təcrübə üzrə beynəlxalq əməkdaşlığın inkişafına həsr olunan tədbirdə çıxış edən A.Məmmədova Azərbaycan Tibb Universitetinin fəaliyyəti, tibb təhsilində tətbiq olunan yeniliklər, klinik fəaliyyət istiqamətləri və elmi nailiyyətləri barədə məlumat verib. Həmçinin beynəlxalq akademik əməkdaşlıq və qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyətini vurğulayıb.

ATU jurnalının növbəti sayı çapdan çıxıb




"Azərbaycan Tibb Universitetinin Jurnalı"nın 2026-cı il üzrə üçüncü nömrəsi hazırlanıb. Yeni buraxılışda tibbin doqquz istiqaməti üzrə elmi məqalələr, aktual tədqiqatların nəticələri və beynəlxalq elmi əməkdaşlığın nümunəsi olan araşdırmalar təqdim edilir.

Jurnalın yeni sayında tibb, ictimai səhiyyə, əczaçılıq, ümumi cərrahiyyə, urologiya, pediatriya, patofiziologiya, anatomiya və histologiya sahələrini əhatə edən elmi işlər yer alıb. Məqalələr tibbin müxtəlif istiqamətlərində aparılan tədqiqatların nəticələrini elmi ictimaiyyətin diqqətinə çatdırır.

Buraxılışın əsas diqqətçəkən araşdırmalarından biri Türkiyənin Ege Universitetinin Biokimya kafedrası və Təbiət elmləri fakültəsinin professoru Aziz Eftekharinin rəhbərlik etdiyi elmi qrupun solid şişlərin müalicəsində yeni texnologiyaların tətbiqinə həsr olunmuş tədqiqatıdır. Araşdırmanın jurnalda yer alması onkologiyada innovativ müalicə yanaşmalarının və müasir texnologiyaların tətbiqi perspektivlərinin elmi müzakirəsi baxımından xüsusi maraq doğurur.

Xatırladaq ki, "Azərbaycan Tibb Universitetinin Jurnalı" Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının elmi nəşrlər siyahısına daxildir və "Google Scholar" və EBSCO beynəlxalq elmi informasiya platformalarında indeksləşdirilir.

Pasiyentin əl barmaqları amputasiyadan xilas edilib



Tədris Cərrahiyyə Klinikasının Plastik cərrahiyyə şöbəsinin müdiri Adil Cümşüdovun rəhbərliyi ilə həyata keçirilən əməliyyat zamanı məişət şəraitində motorlu kəsici alətlə xəsarət alan pasiyentin əlində yaranmış mürəkkəb zədələnmələr aradan qaldırılıb.

Travma nəticəsində pasiyentin III, IV və V barmaqlarının vətərləri kəsilib, eyni zamanda geniş yumşaq toxuma defekti yaranıb. Barmaqların amputasiyadan xilas edilməsi və funksiyalarının mümkün qədər qorunması məqsədilə kompleks rekonstruktiv cərrahi müdaxilə icra olunub.

Əməliyyat zamanı yumşaq toxuma defektinin bərpası üçün flep cərrahiyyəsi, zədələnmiş vətərlərin funksiyasının bərpası məqsədilə vətər transferi həyata keçirilib. Kəsilmiş sinirlərin mümkün olan hissələri isə mikrocərrahi üsulla bərpa edilib. Eyni zamanda toxumaların qan təchizatının yenidən təmin olunması üçün damarların mikrocərrahi rekonstruksiyası aparılıb.

A.Cümşüdovun sözlərinə görə, müalicə iki mərhələdə planlaşdırılıb. Birinci mərhələdə formalaşdırılan flep təxminən üç həftə ərzində əl nahiyəsinə bağlı vəziyyətdə saxlanılacaq. Bu müddətdən sonra ikinci mərhələdə flep ayrılaraq son rekonstruktiv müdaxilə həyata keçiriləcək.

Tanınmış anatom-alim, xeyirxah müəllim



Azərbaycan Tibb Universitetinin elmi-pedaqoji mühitində özünəməxsus yeri olan, uzun illər İnsan anatomiyası və tibbi terminologiya kafedrasının inkişafına dəyərli töhfələr verən dosent Şöhrət İbrahim oğlu Qasımovun 80 illik yubileyi qeyd edilir. 1946-cı il noyabrın 14-də Şəmkir rayonunun Muxtariyyə (indiki Qədim Qala) kəndində dünyaya göz açmış Şöhrət müəllim yarım əsrdən artıq davam edən elmi-pedaqoji fəaliyyəti ərzində zəngin elmi irsi, yüksək pedaqoji ustalığı və tibb təhsilinin inkişafına verdiyi töhfələrlə seçilib.

Ş.Qasımovun peşəkar fəaliyyəti 1970-ci illərin əvvəllərindən başlayıb. Gənc yaşlarından təşkilati işlərdə fəallığı ilə seçilən Şöhrət müəllim 1971-1974-cü illərdə Azərbaycan Tibb İnstitutunun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri vəzifəsində çalışıb. Bu dövr onun təşkilatçılıq və liderlik keyfiyyətlərinin formalaşmasında mühüm rol oynayıb. 1972-ci ilin yanvarında Ümumittifaq Tibb İşçiləri Həmkarlar İttifaqı Komitəsinin Moskva şəhərində keçirilən qurultayında iştirak edib. Şöhrət müəllimin Azərbaycan Tibb Universitetində fəaliyyətinin artıq 54 ili tamam olub. Bu müddət ərzində o, İnsan anatomiyası və tibbi terminologiya kafedrasının aparıcı müəllimlərindən biri kimi formalaşıb, tədris və elmi fəaliyyət sahələrində ardıcıl və məhsuldar çalışıb. Onun elmi yaradıcılığı olduqca zəngindir. Ş.Qasımovun müəllifliyi ilə 150-dən çox elmi və elmi-kütləvi iş, 15 dərslik, 14 tədris və metodik vəsait, eləcə də Türk dünyasında ilk dəfə tərtib olunan "İnsan anatomiyası atlası" ərsəyə gəlib. Bu zəngin elmi irs onun tibb elminə verdiyi töhfələrin miqyasını aydın şəkildə göstərib. Şöhrət müəllimin fəaliyyətinin mühüm istiqamətlərindən biri də Dövlət İmtahan Mərkəzində İnsan anatomiyası üzrə ekspert kimi çalışması olub. O, imtahan-test suallarının hazırlanması, proqramların tərtibi, tələbələrin sərbəst işlərinin qiymətləndirilməsi və məsləhət saatlarının keçirilməsində yaxından iştirak edib. Ş.Qasımovun kafedranın inkişafında xüsusi rolu tədris hissə müdiri kimi 30 ilə yaxın müddətdə çalışdığı illərdə daha aydın nəzərə çarpır. Eləcə də onun fəaliyyəti I Müalicə-profilaktika fakültəsinin və bütövlükdə universitetin ictimai-mədəni həyatında da öz əksini tapıb. Şöhrət müəllim müxtəlif tədbirlərin təşkilində, tələbələrin maarifləndirilməsində və elmi mühitin inkişaf etdirilməsində fəallıq göstərib. Ş.Qasımov yüksək mədəniyyəti, səmimiyyəti, işgüzarlığı və prinsipiallığı ilə seçilən ziyalı kimi həmkarlarının və tələbələrinin dərin hörmətini qazanıb. Onun 54 illik fədakar fəaliyyəti, zəngin elmi irsi və yüzlərlə tələbənin yetişdirilməsindəki rolu ATU-nun və bütövlükdə ölkə tibb elminin inkişafında özünəməxsus yer tutur. 80 illik yubileyi münasibətilə Şöhrət Qasımovu ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür və gələcək fəaliyyətində yeni uğurlar arzulayırıq!

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları

Böyrək nəqli: kimlər donor ola bilər?

II Cərrahi xəstəliklər kafedrasının dosenti, Tədris Cərrahiyyə Klinikasının Transplantologiya şöbəsinin müdiri Anar Namazov böyrək nəqlinin göstərişləri, donor seçimi və əməliyyatdan sonrakı müalicə barədə məlumat verib.



Şöbə müdiri bildirib ki, böyrək nəqli, əsasən son mərhələ böyrək çatışmazlığı olan xəstələrə tətbiq edilir. Əməliyyatın əsas məqsədi xəstəni dializdən asılılıqdan azad etmək və həyat keyfiyyətini yaxşılaşdırmaqdır. Onun sözlərinə görə, dializin hemodializ və peritoneal dializ olmaqla iki əsas növü var. Hemodializ tibb müəssisəsində xüsusi avadanlıqlar vasitəsilə aparılır, peritoneal dializ isə xəstənin ev şəraitində də həyata keçirilə bilər. A.Namazov qeyd edib ki, böyrək nəqlinin icrası üçün uyğun donorun olması mühüm şərtdir. Donor qismində birinci və ikinci dərəcəli qohumlar, eləcə də qohum olmayan şəxslər çıxış edə bilər. Transplantasiyanın mümkünlüyünü müəyyənləşdirmək üçün donorla resipiyent arasında qan qrupu və toxuma uyğunluğu qiymətləndirilir, bununla yanaşı, digər immunoloji göstəricilər də xüsusi laborator müayinələr vasitəsilə araşdırılır. Mütəxəssis vurğulayıb ki, müalicə prosesi böyrək nəqli əməliyyatı ilə başa çatmır. Transplantasiya olunmuş böyrəyin fəaliyyətini qorumaq üçün immunosupressiv dərmanlar ömür boyu qəbul edilməlidir. Bu preparatların dozası həkim tərəfindən müəyyənləşdirilməli, müalicə isə mütəmadi tibbi nəzarət altında aparılmalıdır. Donorluqla bağlı cəmiyyətdə mövcud olan narahatlıqlara da toxunan şöbə müdiri bildirib ki, böyrəyini bağışlamaq istəyən şəxslər əməliyyatdan əvvəl hərtərəfli müayinədən keçirilirlər. Bu prosesdə əsas məqsəd donorun sağlamlığını və təhlükəsizliyini qorumaqdır. Müayinələr zamanı əks-göstəriş müəyyən edilmədikdə, şəxs donor ola bilər. Sağlam donor bir böyrəklə də normal həyat fəaliyyətini davam etdirə bilər. Bununla belə, donorluqdan sonra mütəmadi tibbi nəzarət vacibdir. A.Namazov əlavə edib ki, böyrək nəqli təcili əməliyyat deyil və böyrək çatışmazlığı olan xəstələrə planlı şəkildə həyata keçirilir. Kreatinin səviyyəsi yüksək olan xəstələrdə isə, böyrək funksiyasının vəziyyətindən asılı olaraq dializ vasitəsilə qandakı zərərli maddələrin səviyyəsi tənzimlənir.

ATU növbəti sosial aksiyaya qoşulub

Müəllim və tələbələrimiz cəmiyyətin həssas qruplarına tibbi dəstəyin göstərilməsi, sağlamlığın qorunması və sosial rifahın təşviqi istiqamətində növbəti təşəbbüsə qoşulublar.

Bakı Şəhər Herontoloji Mərkəzinin təşkil etdiyi aksiya çərçivəsində 9 saylı "Qocalar evi"nin sakinləri tibbi müayinədən keçirilib. Aksiyada Ailə təbabəti kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Arzu Bəydəmirova, IV kurs rezident Nəzrin Eynizadə və II Müalicə-profilaktika fakültəsinin IV kurs tələbəsi Şəhriyar İsmayılzadə yaxından iştirak ediblər. Universitet nümayəndələri ahıl sakinlərin sağlamlıq vəziyyətini qiymətləndirərək, ümumilikdə 60-a yaxın şəxsin tibbi müayinəsini həyata



keçirib, onların sağlamlığının qorunması və tibbi ehtiyaclarının müəyyənləşdirilməsinə töhfə veriblər. Arzu Bəydəmirova bu cür tədbirlərin gələcəyin həkimlərinin hazırlanmasında mühüm rol oynadığını bildirib. Onun sözlərinə görə, tələbə və rezidentlər nəzəri biliklərini praktikada tətbiq etməklə yanaşı, empatiya, səbr, məsuliyyət və humanizm kimi yüksək hissləri də dərindən mənimsəyirlər. Bu qəbildən olan təşəbbüslər yalnız tibbi xidmət göstərilməsi ilə məhdudlaşmır, eyni zamand a ahıl insanlara diqqət və qayğının artırılması, onların cəmiyyət həyatında rifahının dəstəklənməsi baxımından mühüm əhəmiyyət daşıyır. Azərbaycan Tibb Universiteti bu kimi sosial yönümlü təşəbbüslərdə iştirakı ilə yalnız yüksəkixtisaslı tibb kadrlarının hazırlanmasına deyil, həm də sağlam, inklüziv və qayğıkeş cəmiyyətin formalaşmasına töhfə verir.

İnsan sağlamlığına, elmin və təhsilin inkişafına həsr olunan ömür yolu xüsusi ehtirama layiqdir. Ömrünün 60-cı baharını qarşılayan Azərbaycan Tibb Universitetinin Elmi Araşdırmalar Mərkəzinin direktor müavini, Patologiya kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Elçin Çingiz oğlu Əkbərov məhz belə şərəfli, məhsuldar və örnək həyat yolu keçmiş fədakar alimlərimizdəndir.



Təcrübəli pedaqoq, dərin bilikli alim

E.Əkbərovun həyatı Azərbaycan Tibb Universiteti ilə sıx bağlıdır. I Müalicə-profilaktika fakültəsini fərqlənmə və yüksək biliklə başa vurduqdan sonra o, ömrünü elmə və pedaqoji fəaliyyətə həsr edib. İnsan anatomiyasından başlayan elmi axtarışlar, aspirantura illəri və müdafiə olunan tibb üzrə fəlsəfə doktorluğu dissertasiyası onun fundamental tibb elminə olan dərin marağının və zəhmətinin bariz nümunəsidir. Uzun illər ərzində müxtəlif kafedralarda, o cümlədən Operativ cərrahlıq və topoqrafik anatomiya, İnsan anatomiyası və hazırda fəaliyyət göstərdiyi Patologiya kafedrasında assistent və dosent vəzifələrində çalışan Elçin müəllim minlərlə gənc həkimin yetişməsində böyük rol oynayıb. Mühazirə və praktik məşğələlərini təkcə Azərbaycan dilində deyil, ingilis dilində də yüksək səviyyədə apararaq beynəlxalq standartlara cavab verən təhsil mühitinin formalaşmasına böyük töhfə verir. Elçin Əkbərov təkcə təcrübəli pedaqoq deyil, eyni zamanda dərin bilik və analitik təfəkkürə malik alimdir. Əsasən sinir sisteminin morfologiyasına həsr olunmuş elmi-tədqiqat işləri, 150-dən çox elmi əsəri, 9 dərslik və 4 dərs vəsaiti onun elmi potensialının parlaq göstəricisidir. Azərbaycan Tibb Universitetinin Elmi Araşdırmalar Mərkəzinin direktor müavini kimi məsuliyyətli inzibati vəzifədə çalışan E.Əkbərov elmi-tədqiqat işlərinin təşkilində, gənc tədqiqatçıların elmə cəlb olunmasında öz köməyini əsirgəmir. Elçin müəllimi tanıyanlar – kollektiv, həmkarları və tələbələri onu ilk növbədə səmimi, alicənab və yüksək mənəvi keyfiyyətlərə malik bir ziyalı kimi dəyərləndirirlər. Yubileyi münasibətilə Elçin müəllimi təbrik edir, möhkəm cansağlığı, uzun və mənalı ömür, yeni-yeni uğurlar arzulayırıq!

Elmi Araşdırmalar Mərkəzinin kollektivi

Əczaçılıq təhsilində fəlsəfi dünyagörüşün rolu

Əczaçılıq yalnız texniki və kimya haqda biliklərin məcmusu deyil. İnsan sağlamlığı və həyatı ilə birbaşa bağlı olan bu sahədə gələcək mütəxəssisin elmi biliklərlə yanaşı, etik düşüncəyə, humanist dəyərlərə və yüksək məsuliyyət hissinə malik olması da vacibdir. Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının assistenti Səyyəddin Atakişizadə fəlsəfi dünyagörüşün əczaçılıq təhsilində məhz bu baxımdan mühüm rol oynadığını bildirir.



Onun fikrincə, müasir ali təhsildə dar ixtisaslaşmaya və texniki bacarıqlara üstünlük verilməsi insan həyatı və sağlamlığı ilə bağlı peşələrdə humanitar və etik yanaşmaların əhəmiyyətini azaltmamalıdır: "Əczaçılıq təkcə texniki və kimya haqda biliklərin toplusu deyil. Bu sahə birbaşa insan sağlamlığı və həyatı ilə bağlı olduğundan, onun humanitar, etik və fəlsəfi əsasları da xüsusi əhəmiyyət daşıyır". S.Atakişizadə hesab edir ki, fəlsəfənin epistemologiya, yəni idrak nəzəriyyəsi istiqaməti əczaçılıq təhsilində tələbələrin elmi düşüncə tərzinin formalaşmasına kömək edə bilər. Tələbə yalnız elmi faktları əzbərləməməli, onların necə əldə edildiyini, hansı metodologiyaya və sübutlara əsaslandığını da anlamalıdır. Bu yanaşma tənqidi təfəkkürün inkişafına və sübutlara əsaslanan tibbi biliklərin düzgün qiymətləndirilməsinə imkan verir. Çünki elmi biliklər dəyişməz deyil, yeni tədqiqatların nəticələrinə uyğun olaraq daim yenilənir. Fəlsəfi dünyagörüşün əczaçılıq təhsilində mühüm istiqamətlərindən biri də bioetika və deontologiyadır. S.Atakişizadənin sözlərinə görə, gələcək əczaçı peşə fəaliyyətində insan sağlamlığını əsas prioritet kimi qəbul etməli, "zərər vurmamaq", ədalət və məsuliyyət prinsiplərini rəhbər tutmalıdır: "Dərmanların istehsalı və satışı zamanı kommersiya maraqları insan sağlamlığından sonra gəlməlidir. Dərman preparatları və tibbi xidmətlərə cəmiyyətin müxtəlif təbəqələrinin əlçatanlığı da yalnız iqtisadi deyil, həm də etik və sosial məsələdir". S.Atakişizadə əczaçının fəaliyyətində humanizmin də xüsusi əhəmiyyət daşıdığını bildirir. Əczaçı yalnız dərmanı təqdim edən mütəxəssis deyil, eyni zamanda xəstə ilə ünsiyyətdə olan, dərmanın düzgün istifadəsini izah edən və pasiyentin suallarını cavablandıran səhiyyə mütəxəssisidir. Bu baxımdan empatiya, insanpərvərlik və düzgün ünsiyyət bacarığı peşəkar hazırlığın vacib elementlərindəndir. S.Atakişizadə hesab edir ki, fəlsəfi dünyagörüş gələcək əczaçının peşəkar kimliyinin formalaşmasına təsir göstərir: "Biz yalnız güclü kimyaçılar və texnoloqlar deyil, eyni zamanda yüksək mənəviyyata malik, insan sağlamlığı ilə bağlı məsuliyyətini dərk edən və cəmiyyət qarşısında öz vəzifəsini anlayan əczaçılar yetişdirməliyik".

Beynəlxalq Kitab Sərgisi: ATU-nun stendi diqqət mərkəzində



Universitetimiz "Həyat ekrandan böyükdür: bir uşaq, bir kitab, bir gerçək dünya" mövzusuna həsr olunmuş 12-ci Bakı Beynəlxalq Kitab Sərgisində təmsil olunub.

Bakı Ekspo Mərkəzində universitetimizin elmi potensialı, zəngin informasiya resursları və müasir kitabxana xidmətlərini nümayiş etdirən ATU stendi ilk gündən sərgi ziyarətçilərinin diqqətini çəkib. Stendimizi ziyarət edən mədəniyyət naziri Adil Kərimli Azərbaycan Tibb Universitetinin beynəlxalq tədbirdə iştirakını yüksək dəyərləndirib. Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, akademik Nizami Cəfərov, çağdaş ədəbiyyatın görkəmli nümayəndəsi Seyran Səxavət, xalq şairi Sabir Rüstəmxanlı, millət vəkilləri - Vüqar Rəhimzadə, Azay Kərimov və digər tanınmış şəxslər ATU stendinə baş çəkiblər. Ziyarətçi fəallığı ilə seçilən sərgidə Elektron Kitabxananın direktoru, tarix üzrə fəlsəfə doktoru Ziyafət Eminova və digər əməkdaşlarımız iştirakçıları maraqlandıran sualları cavablandırıb, kitabxananın fəaliyyəti, elektron resurslardan istifadə imkanları və elmi-tədris məlumatlarının əldə olunması yolları barədə məlumat veriblər. Xüsusilə ali təhsil müəssisələrinə qəbul olunmağa hazırlaşan abituriyentlər üçün universitetin elmi və tədris resursları ilə tanışlıq gələcək təhsil seçimləri baxımından əhəmiyyət daşıyır.

"Zirvəyə birlikdə qalxaq!"

"Bakı – Dünyanın İdman Paytaxtı 2026" layihəsi çərçivəsində və 18 Oktyabr – Müstəqilliyin Bərpası Günü münasibətilə paytaxtımızda "Zirvəyə birlikdə qalxaq!" şüarı altında kütləvi yürüş təşkil edilib.



Gənclər və İdman Nazirliyi ilə Azərbaycan Atletika Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən tədbirin əsas məqsədi aktiv həyat tərzini təbliğ etmək, əhali arasında fiziki fəallığı artırmaq və idmanın cəmiyyətdə rolunu təşviq etmək olub. Yürüşdə gənclər və idman naziri Fərid Qayıbov, "İdman səfirləri", idman ictimaiyyətinin nümayəndələri və müxtəlif yaş qruplarından olan 500-dək paytaxt sakini iştirak edib. Universitetimizin tələbələri də bu idman tədbirinə qoşulub. Bakı Funikulyorunun qarşısından start götürən iştirakçılar 566 pilləni qət edərək Dağüstü parkda finiş xəttinə çatıblar. Yürüşdə iştirak edən 10 ATU tələbəsinin hər biri məsafəni uğurla başa vuraraq finişə çatıb və xatirə medalları ilə təltif olunub.

Belə tədbirlər gənclər arasında sağlam həyat tərzinin təşviqinə, fiziki fəallığın artırılmasına, əzmkarlıq və iradə kimi keyfiyyətlərin inkişafına, eləcə də idmana marağın gücləndirilməsinə mühüm töhfə verir.

Kamandan oxatma turnirində I yer qazanmışıq



Hərbi tibb fakültəsinin II kurs tələbəsi Tükəzban Zalova növbəti uğura imza atıb. Belə ki, həvəskarlar arasında keçirilən "Target Archery Open by Book&Play" kamandan oxatma turnirində iştirak edən Tükəzban I yerə layiq görülüb.

Azərbaycan Kamandan Oxatma Federasiyası, Vector Archery Club və Fokus Kamandan Oxatma Məktəbinin birgə dəstəyi ilə təşkil olunan turnir həvəskarlar arasında kamandan oxatma idman növünə marağın artırılması, eləcə də iştirakçıların dəqiqlik, diqqət və konsentrasiya bacarıqlarının nümayiş etdirilməsi məqsədi daşıyıb. Yarış çərçivəsində atışlar 10 metr məsafədən həyata keçirilib. Gərgin və maraqlı mübarizənin yekununda T.Zalova qızıl medal qazanaraq turnirin qalibi olub.

Kursantlarımız rəsm sərgisində fərqlənib

Hərbi tibb fakültəsinin kursantları Bəsti Sədrova və Aytac Əliyeva Heydər Əliyev adına Hərbi İnstitutda keçirilən "Vətən, Ordu və Milli dəyərlər" adlı rəsm sərgisində fəal iştiraklarına və nümayiş etdirdikləri yaradıcılıq nümunələrinə görə diplom və qiymətli hədiyyələrlə təltif olunublar.

Sərgi gənclərin və hərbi qulluqçuların vətənpərvərlik ruhunun yüksəldilməsi, milli-mənəvi dəyərlərin təbliği və onların yaradıcılıq potensialının üzə çıxarılması məqsədilə təşkil edilib. Kursantlar B.Sədrova və A.Əliyevanın təqdim etdikləri rəsm əsərlərində Vətənə məhəbbət, Azərbaycan Ordusunun qüdrəti, xalqımızın qəhrəmanlıq salnaməsi və milli-mənəvi dəyərləri bədii ifadəsini tapıb. Sərgini ziyarət edən incəsənət nümayəndələri gənclərin əsərlərinə böyük maraq göstəriblər. Azərbaycan Rəssamlar İttifaqının sədr müavini, Xalq rəssamı Ağaəli İbrahimov və İttifaqın digər üzvləri, eləcə də incəsənət xadimləri kursantların yaradıcılığını yüksək qiymətləndiriblər.

I Müalicə-profilaktika fakültəsinin tələbəsi Məhsa Palar idman ustası, Əməkdar məşqçi Sadıq Sadıqovun 72-ci ildönümünə həsr olunmuş "Qızıl Payız Qaçış Festivalı"nda iştirak edib. O, qadınlar arasında ümumi sıralamada VII yeri tutaraq uğurlu nəticə göstərib.

Tələbəmiz "Qızıl Payız Qaçış Festivalı"nda uğur qazanıb

Gənclər və İdman Nazirliyinin və Azərbaycan Atletika Federasiyasının təşkilatçılığı ilə keçirilən festivalda 206 iştirakçı 12 kilometrlik qaçış məsafəsində mübarizə aparıb. Azərbaycan Tibb Universiteti tələbələrin idman nailiyyətlərini dəstəkləyir, onların sağlam həyat tərzinə və fəal həyata təşviq olunmasına xüsusi önəm verir.



18 Oktyabr – Müstəqilliyin Bərpası Günü ilə əlaqədar Hərbi tibb fakültəsinin şəxsi heyətinin Zəfər Muzeyinə (Zəfər parkı və kompleksinə) ziyarəti təşkil olunub.

Gələcək hərbi həkimlər Zəfər Muzeyində olub



Ziyarət çərçivəsində gələcək hərbi həkimlər və fakültənin zabit-müəllim heyəti Azərbaycanın müstəqillik tarixi, eləcə də Vətən müharibəsində qazanılan şanlı Qələbəni təcəssüm etdirən eksponatlar, interaktiv stendlər və tarixi xronika ilə yaxından tanış olublar. Muzeyin bələdçisi tərəfindən kursantlara Azərbaycanın müstəqillik mübarizəsi, torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi və müzəffər ordumuzun qəhrəmanlıq salnaməsi haqqında ətraflı məlumat verilib. Şəxsi heyət Zəfər parkında ucaldılmış "Zəfər Tağı və 8 Noyabr" memorial abidəsi önündə xatirə fotosu çəkdirib.

Tələbələr "Tibbi CV-lərin hazırlanması" üzrə yarışıb

Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) nəzdində fəaliyyət göstərən "Xarici tələbələrin səsi" klubunun təşkilatçılığı ilə "Tibbi CV-lərin hazırlanması" adlı seminar keçirilib.



Seminarın əsas məqsədi gələcək tibb mütəxəssislərinin peşəkar karyera quruculuğu bacarıqlarını inkişaf etdirmək, onlara tibbi CV-nin hazırlanmasının əsas prinsiplərini öyrətmək və əmək bazarına hazırlıq səviyyələrini artırmaq olub. Tədbirdə çıxış edən neyrocərrah, klinik nevrologiya üzrə mütəxəssis Nigar Nəcəfbəyli tibbi CV-nin hazırlanması zamanı diqqət yetirilməli məqamlar, peşəkar təcrübə və bacarıqların düzgün təqdim edilməsi, eləcə də CV-nin daha effektiv və rəqabətədavamlı formalaşdırılması barədə tələbələrə ətraflı məlumat verib. Seminarın praktik hissəsində tələbələr arasında "CV-nin təkmilləşdirilməsi müsabiqəsi" - "CV Makeover Challenge" təşkil olunub. Tədbirin sonunda qalib komandalar hədiyyələrlə, bütün iştirakçılar isə sertifikatlarla təltif edilib.

Allah rəhmət eləsin!

Bioloji kimya kafedrasının əməkdaşları kafedranın professoru Tahirə xanım Əsgərovaya əzizi

Anar Mühəmmədlinin

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bioloji kimya kafedrasının əməkdaşları kafedranın assisenti Nigar Mikayılovaya atası

Xəzri kişinin

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan dili kafedrasının əməkdaşları kafedranın baş müəllimi Nüşabə Əliyevaya bacısı

Elmira xanımın

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın dosenti Ələsgər Vəliyevə həyat yoldaşı

Bahar xanımın

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Anesteziologiya, reanimatologiya, intensiv terapiya kafedrasının əməkdaşları kafedranın assistenti Aytən Ağayevaya atası

Rafiq müəllimin

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0018
Sayı 800